# Prof. Afaq Məmmədova

## Personal Information

**Email:** afag_mammadova@unec.edu.az
**Web:** https://avesis.unec.edu.az/afag_mammadova

## Biography

**Fəlsəfə elmləri doktoru, prof. Məmmədova Afaq Sultan qızı**

*e-mail: mamedov.afaq@yandex.com*

07 aprel 1974-cü ildə anadan olmuşdur.

1992-ci ildə Bakı şəhəri 239 saylı məktəbi bitirmişdir.

1997-ci ildə M.Ə. Rəsulzadə adına Bakı Dövlət Universiteti Sosial Elmlər və Psixologiya fakültəsinin "Fəlsəfə" bölməsini fərqlənmə diplomu ilə bitirərək filosof, fəlsəfə müəllimi ixtisası almışdır.

08.06.2002-ci ildə BDU-nun Elmi Şurasında "Azərbaycan Romantizminin fəlsəfəsi (Məhəmməd Hadi irsinin tədqiqi əsasında)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, 19.12.2003-ci ildə Azərbaycan Respublikası Prezidenti yanınıda AAK-ın qərarı ilə fəlsəfə elmləri namizədi (f.ü.f.d.) alimlik dərəcəsi almışdır.

16.09.2016-cı ildə AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda "Fəlsəfi fikir tarixində Romantizm mərhələsi (XVIII-XX əsrlər)" mövzusunda dissertasiya işini müdafiə etmiş, 04.07. 2018-ci ildə AAK-ın qərarı ilə fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi almışdır.

1997- ci ildən "Fəlsəfə" kafedranın baş laborantı, 2000-ci ildən müəllim, 2002-ci ildən baş müəllim kimi çalışmış, 2012-ci ildən dosent vəzifəsinə keçirilmişdir.

Magistatura qruplarında "Ali məktəb pedoqogikası", "İqtisadiyyat fəlsəfəsi", "Estetika", Bakalavr qruplarında "Fəlsəfə", "Sosial pedoqogika", SABAH Mərkəzində "Mədəniyyətşünaslıq", "Multikulturalizmə giriş" və s. fənlərini tədris edir.

2017-ci ildə Bakı Beynəlxalq Multikulturalizm mərkəzinin;

2018-ci ildə "Müasir müəllimin fərdi işçi planının (Syllabus) tərtibi" Azərbaycan Respublikası Təhsil Nazirliyi, ADA Universiteti, SABAH Mərkəzinin;

2020-ci ildə UNEC-in təşkilatçılığı ilə "Distant təhsildə tədrisin təşkili və metodiki təminat" mövzusunda təşkil olunan bir sıra digər təlimlərində iştirak etmiş və sertifikatlar qazanmışdır.

2 monoqrafiyası ("Məhəmməd Hadi Romantizminin fəlsəfəsi", (2003), və "Romantizmin fəlsəfəsi" (2011)) 1 metodiki vəsaiti (Fəlsəfə və sosial gerçəklik, 2007), "Mədəniyyətşünaslıq" fənni üzrə dərs vəsaiti, fəlsəfə üzrə tədris proqramı və 70-dan artıq elmi məqaləsi çap edilmişdir.

Məqalə və tezisləri ABŞ, İngiltərə, Türkiyə, Bolqarıstan, Çexiya, Macarıstan, Polşa, Rusiya, Belarus, Ukrayna, Kazaxstan, Tacikstan Pakistan, Misir kimi ölkələrdə nəşr olunmuşdur. Məqalələrdən 2-si "SCOPUS", 2-si isə Web of Science indeksli jurnallarda çap edilmişdir.

2020-2021-ci il müəllimlərin reytinq siyahısında 25-ci yeri tutmuşdur.

2019-cu ildən AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun Dissertasiya Şurasının üzvüdür. İxtisası üzrə 10-dan artıq dissertanta oppanentlik etmişdir.

Kafedrada tədris olunan fənlər üzrə proqram, tədris-metodiki vəsaitlərin, interaktiv mühazirələrin və testlərin hazırlanmasını həyata keçirir.

2020-ci ildə UNEC-in 90 illik yubileyi münasibətilə yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasındakı xidmətlərinə görə Fəxri Fərmanı ilə təltif olunmuşdur.

20.04.2022-ci il tarixdən UNEC-in "Humanitar fənlər" kafedrasının professoru vəzifəsinə keçirilib.

Ailəlidir, iki övladı var.

## Research Areas

Social Sciences and Humanities, Philosophy, Theology

## Academic Titles / Tasks

Professor, Azerbaijan State University of Economics (UNEC), Ümumi Fənlərin Tədrisinin Təşkili Departamenti, Humanitar Fənlər Kafedrası, 1997 - Continues

## Metrics